# Üzeyir bəy və Səməd Vurğun dostluğu xatirələrdə



*Ramiz GÖYLƏR*

**(əvvəli ötən sayımızda)**

Üzeyir bəy bəstəkarlar İttifaqının sədri, gənc Səməd Vurğun isə Yazıçılar ittifaqının fəal üzlərindən idi. Həmin illər bu birliklər respublikanın nüfuzlu yaradıcı ziyalılarını və istedadlı sənət adamlarını öz ətrafına toplayaraq ictimai-siyasi həyatımızın bütün sahələrində mühüm rol oynayırdı. Bu iki ittifaq bir çox hallarda tədbirlərini birgə təşkil edirdi. Bu tədbirlərdə Üzeyir bəylə Səməd Vurğun indi daha çox ünsiyyətdə olurdular.

Bütün istedadlı gənclərə bir atalıq qayğısı göstərən Üzeyir Haçıbəyli Səməd Vurğuna xüsusi qayğı ilə Böyük şairin musiqiyə qeyri-adi sevgisi onun Üzeyir bəylə də dostluq əlaqələrinin yaranmasına səbəb olmuşdu. Şairin Üzeyi bəy Hacıbəyli ilə ilk qiyabi tanışlığı seminariyada oxuduğu illərdə, Üzeyir bəyin əsrləri ilə tanışlıqdan başlayırdı. Üzeyir bəyin musiqisi Səmədi gözə görünməz tellərlə bir cazibə qüvvəsi kimi özünə çəkirdi. Və Səməddə bu Böyük İnsan və Böyük bəstəkarla ünsiyyət qurmaq hissi onu tərk etmirdi. Bu iki Böyük şəxsiyyətin dostluğu Səməd Vurğun Moskvadan Bakıya qayıtdıqdan sonra-1931-32-ci illərdən başlayır.

Həmin illər artıq Üzeyir bəy keçmiş SSRİ-də və dünyada tanınan məşhur bir bəstəkar idi. Səməd Vurğunun isə istedadı getdikcə parlayır, yaradıcılığı geniş kütlələrii özünə cəlb edirdi. 1934-cü ilin iyun ayında, respublikamızda mühüm hadisələrin cərəyan etdiyi bir dönəmdə, Azərbaycan ədəbiyyatının və musiqisinin inkişafında sonralar mühüm rol oynayan və əlamətdar bir hadisə kimi tarixə düşən Azərbaycan Yazıçılar İttifaqı və Bəstəkarlar İttifaqı yaradıldı. Üzeyir bəy bəstəkarlar İtifaqının sədri, gənc Səməd Vurğun isə Yazıçılar ittifaqının fəal üzlərindən idi. Həmin illər bu birliklər respublikanın nüfuzlu yaradıcı ziyalılarını və istedadlı sənət adamlarını öz ətrafına toplayaraq ictimai-siyasi həyatımızın bütün sahələrində mühüm rol oynayırdı. Bu iki ittifaq bir çox hallarda tədbirlərini birgə təşkil edirdi. Bu tədbirlərdə Üzeyir bəylə Səməd Vurğun indi daha çox ünsiyyətdə olurdular. Bütün istedadlı gənclərə bir atalıq qayğısı göstərən Üzeyir Haçıbəyli Səməd Vurğuna xüsusi qayğı ilə yanaşır, onun yardıcılığını daim izləyir və yüksək qiymət verirdi. Bu illərdə Səməd Vurğun və Üzeyir Hacıbəyli bütün ideoloji basqılara baxmayaraq özlərinin şah əsərlərini yaratmaqla, həm də bir ictimai xadim olaraq respublikanın ictimai-siyasi həyatında mühüm rol oynayırdılar. 1941-ci ildə Səməd Vurğun Azərbaycan Yazıçılar İttifaqının sədri seçildikdən sonra onun Üzeyir bəylə təmasları tez-tez olurdu. Və bu təmaslar artıq onlar arasında böyük yaş fərqinin (21 il) olmasına baxmayaraq dostluğa çevrilmişdi. Həm də onlar arasında bir-birinə ata-oğul münasibətləri səviyyəsinə qədrə yüksələn bir ünsiyyət formalaşmışdı. Bu münasibətlər onlar arasında həm də yaradıcılıq müstəvisində özünü göstərirdi. Bu iki dahi şəxsiyyətin yaradıcılıq əməkdaşlığı İkinci Dünya müharibəsi dövründə xüsusi bir mərhələ təşkil edir. Həmin illərdə o zamankı dövr yaradıcı insanlardan Vətən, müharibə, müdafiə, qəhrəmanlıq mövzusunda yeni-yeni əsərlər yaratmağı tələb edirdi. Bütün yaradıcı ziyalılar bu prosesə qoşulmuşmuşdular. Həm alovlu vətənpərvər , həm də yaradıcılıq ittifaqlarının rəhbəri kimi Üzeyir bəylə Səməd Vurğun bu prosesin önündə gedirdilər. Və təsadüfi deyil ki, həmin illərdə Üzeyir bəyin yazdığı üç marşı - "Vətən Ordusu", "Ey Vətən", "Döyüşçülər marşı" və qələbəyə həsr olunmuş "Zəfər himni" Səməd Vurğunun sözlərinə yazılmışdır və nadir sənət nümunələridir. Səməd Vurğunun "Şəfqət bacısı" şeirinə yazdığı müsiqinin isə maraqlı bir tarixcəsi var.

"1941-ci ildə Konservatoriyada yerləşdirilən hərbi hospitalda döyüşlərdə yaralanan əsgərlərlə görüşlərin birində, ağır yaralanmış leytenant Əsgərov, azərbaycanlı bir tibb bacısının şücaətindən qürurla söhbət açaraq demişdir ki, mən sağ qalmağım üçün 19 yaşlı şəfqət bacısına borcluyam."

Bu görüşdən çox mütəəssir olan Üzeyir bəy evə gələn kimi Səməd Vurğuna zəng çalır, əhvalatı ona söyləyir və bildirir ki, şəfqət bacısı haqqında mahnı bəstələmək niyyətindədir. Sözlərini isə yazmağı Səməd Vurğuna həvalə edir. Şair məmnuniyyətlə razılıq verir, səhəri günü hazır mətnlə bəstəkarın yanına gəlir. İki gündən sonra isə məşhur "Şəfqət bacısı" mahnısı hazır olaraq ön cəbhəyə göndərilir.

***Gəl ana yurdumun qızı, gəlini,***
***İndi namus vaxtı, qeyrət dəmidir,***
***Sən də əsirgəmə kömək əlini,***
***Hər sözün, söhbətin can məlhəmidir.***
***Adın şərəflidir sənin ey qadın,***
***Dahilər anası çağırılır adın."***

**(Səadət Qarabağlı)**

***Şairin qardaşı məşhur pedaqoq Mehdixan Vəkilov bu əsərdən bəhs edərkən yazırdı: "Şəfqət bacısı" şeiri də Üzeyir Hacıbəylinin qadir nəğməsində xalq himni kimi qəlblərə yol açmışdı."(Mehdixan Vəkilov)***

***Səməd Vurğunla Üzeyir bəyin dostluğunun və yaradıcılıq mübasibətlərinin nə qədər səmimi və yüksək səviyyədə olduğunun təsdiqi olaraq, yenə də Səadət xanım Qarabağlının araşdırmalarının məhsulu kimi tapdığı nadir bir sənədə- Səməd Vurğunun Üzeyir bəyə yazdığı bir məktuba istinad etməli oluram. Həmin məktubda yazılırdı: "Əzizim Üzeyir bəy! Siz məndən ordumuzun 25-ci ildönümü münasibətilə şeir istəmişdiniz. Mən də "Göz aydınlığı" adlı bir şeir yazıb sizə göndərirəm.İndi söz sizindir! Sizin böyük sənətiniz hər zaman mənim şeirlərimə qanad verdiyi kimi, bu şerimə də qanad verəcək.***

***Əllərinizi bərk-bərk sıxıram, hər vaxt qulluğunuzda hazıram.***

***Sizin S. Vurğun***

***9.11.43. Bakı ".***



Üzeyir bəy hər zaman Səməd Vurğun yaradıcılığına yüksək dəyər vermiş, bir çox hallarda onu nümunə kimi göstərmişdir.

"Bu baxımdan Səməd Vurğunun dili haqqında onun "Fərhad və Şirin" əsərinin Stalin mükafatına təqdim edilməsi münasibətilə Stalin mükafatı komitəsinin iclasında Ü. Hacıbəylinin söylədiyi nitq çox maraqlıdır. Üzeyir bəy çıxışında demişdir: "Səməd Vurğun - müasir Azərbaycan ədəbiyyatının parlaq nümayəndələrindən biridir. Burada mən deyərdim ki, nəinki parlaq nümayəndələrindən biri, hətta ən istedadlı nümayəndəsidir. Azərbaycan dilinin nümunələrini Azərbaycan ədəbiyyatı xəzinəsinə daxil edərək o, Azərbaycan xalqının həyatının bütün sahələrini müxtəlif yollarla əks etdirməyi bacarmışdır. Şairin şeirləri ana vətənə dərin hisslərlə hədsiz məhəbbətlə doludur.

O, şeir sənətinə mükəmməl yiyələnmişdir. ... Bir dramaturq kimi Səməd Vurğunun əsas cəhəti odur ki, onun əsərlərində real xarakterlər verilir və lirik şairin dərin psixologizmi hiss olunur.

Bir dramaturq olaraq onun yaradıcılığının ikinci əsas tərəfi odur ki, o, insan həyatını romantik və filosof şair kimi təsvir edir. Hazırkı "Fərhad və Şirin" əsəri bizim ədəbiyyatımızda və teatrda böyük əhəmiyyət kəsb edən hadisədir..."

1940-cı ildən, yəni yarandığı gündən, ömrünün sonuna kimi Stalin komitəsi üzvü olan Üzeyir bəy Hacıbəylinin bu çıxışından sonra Səməd Vurğunun "Fərhad və Şirin" əsəri qeydsiz-şərtsiz Stalin mükafatına layiq görülmüşdür." (Səadət Qarabağlı)

***Qeyd etmək lazımdır ki, Səməd Vurğun da dahi Üzeyir bəy Hacıbəylinin şəxsiyyətinə böyük hörmət bəsləyib, bəstəkar haqqında sanballı məqalə və şeirlər yazıb. Şair 1948-ci ildə "İnsan qəlbinin tərənnümçüsü" adlı məqaləsində yazırdı: "...Üzeyir musiqisini dinlədiyimiz zaman biz bəzən qaşlarımızı çatıb, loğman kimi düşünürük, bəzən həyat və insan eşqinə odlardan, alovlardan keçən qəhrəmanlar oluruq, bəzən ürəyimiz kaman kimi tələtümə gəlir, bəzən də sakit və nurlu bir yaz səhəri kimi açılırıq, özümüzdə dağlarda külüng çalan Fərhadlar qüdrəti hiss edirik, xəyalımız uçduqca yaşadığımız ana torpağı, onun yaratdığı insan adlı böyük neməti daha çox sevirik, öz varlığımız və tariximiz ilə fəxr edirik". (Tədqiqatçı-jurnalist Vasif Quliyev)***

"Musiq və opera sənətimizin mükəmməl bir abidəsi Səməd Vurğun Koroğlu operası haqqında deyirdi: "Koroğlu Operası Dünya musiqi mədəniyyətinin Yüksək nailiyyətlərini özündə təcəssüm etdirən,bütün mədəni ölkələrinin mənəvi tələbinə cavab verən Azərbaycan musiqi mədəniyyətinin yüksək bir zirvəsi oldu."

***"Leyli və Məcnun" operasına yüksək qiymət verən xalq şairimiz Səməd Vurğun çox doğru olaraq Üzeyir Hacıbəyova "Ey Füzuli şerinin bəstəkar qardaşı" deyə müraciət edirdi.***

***1948-ci ildə Üzeyir bəyin xəstəliyi şiddətlənməyə başladı. Həmin ilin noyabrında Böyük bəstəkar artıq ömrünün son günlərini yaşayırdı.***

***"...Həmin günlərdə Üzeyir bəyə baş çəkənlərdən biri də Səməd Vurğun idi. Şair yataq otağının açıq qapısından içəri boylanır. Üzeyir bəy əlləri sinəsi üstə çarpaz, maddım-maddım ona baxırdı. Üzünün rəngi qaçmışdı. Şair yatağa yaxınlaşanda xəstə qalxıb ona əl vermək istədi, bacarmadı. Səməd Vurğun ustadın soyuq əllərindən öpür.***

***- Oğul, könlüm səni necə istəyirdi, biləsən. Görürsən də... Deyəsən, vaxtdır. Sən yaxşı bilərsən, oğul, necə deyib o şair? Köçmək gərək bu dari-fənadan yavaş-yavaş...***

***Səməd Vurğunun ürəyi dözmür. Diz üstə çöküb Üzeyir bəyin yatağını qucaqlayır, uşaq kimi ağlamağa başlayır. Xəstə titrəyən ipək əlləri ilə onun saçlarını oxşayır.***

***- Köçmək gərək bu dar fənadan yavaş-yavaş..." (Qulam Məmmədli "Üzeyir Hacıbəyov. Həyat və yaradıcılığının salnaməsi" Aznews.az)***

1948-ci il noyabrın 24-də Böyük bəstəkarın yaşamaq və yaratmaq eşqilə döyünən ürəyi döyünməkdən dayandı. "Musiqimizin Peyğəmbəri" Peyğəmbər yaşında əbədiyyətə qovuşdu. Dahi bəstəkarın vida mərasiminə keçmiş SSRİ-nin hər yerindən nümayəndələr gəlmişdilər. Azərbaycan KP MK-nın birinci katibi M.C. Bağırov, partiya və hökumət rəhbərləri fəxri qaravulda dayanmışdılar. Vida mərasimində minlərlə insan iştirak edirdi. Dəfn mərasimi Fəxri Xiyabanda keçirildi. Dahi bəstəkarla vidalaşmaq üçün on minlərlə insan küçələrə şıxmışdı. Bakı indiyədək belə bir izdiham görməmişdi. Dəfn mərasimində şıxış edənlərdən biri də Səməd Vurğun idi:

"Öz gözəl əsərləri ilə bütün sovet xalqının məhəbbətini qazanan dahi sənətkar Üzeyir Hacıbəylinin vəfatını Azərbaycan ziyalıları və zəhmətkeşləri böyük hüznlə qarşılayırlar. Üzeyir Hacıbəyovun sənətkarlığı misilsizdir, onun böyük istedadı sənətkarın adını əbədi yaşadacaqdır. Xalq tərəfindən tanınmaq...sənətkar üçün böyük şərəfdir. Xalq Üzeyir Hacıbəyovu ona görə sevir ki, o, öz unudulmaz əsərlərində xalqın ən yaxşı duyğu, düşüncə və arzularını ifadə etmiş, xalq üçün yaşamış və yaratmışdır. Üzeyir Hacıbəyov yalnız görkəmli bəstəkar və alim deyil, həmçinin sovetlər ölkəsinin böyük vətəndaşı idi...Azərbaycan bəstəkarları, şairləri, ifaçıları və rəssamları tərəfindən yaradılacaq yeni mahnılar, simfoniyalar, operalar və poemalar...bizim unudulmaz və çox sevimli Üzeyir Hacıbəyova ən yaxşı abidə olacaqdır."

Taleyin qəribə paradoksu...Həyatının sonunda Səməd Vurğun da Üzeyir bəyin taleyini yaşadı. 1955-ci ildə şair çağalmaz xəstəliyə düçar oldu. Bir müddət Bakıda müalicə edildikdən sonra O, Moskvaya Kreml xəstəxanasına gönədildi. Burada məşhur həkimlər onu əməliyyat edərkən məlum oldu ki, artıq hər şey çox gecdir. 1956-cı iln fevralında guya şairə vətən havası lazımdır deyə Bakıya qaytarıldı. Mehdixan Vəkilov xatirələrində yazırdı ki: "Səməd Vurğun xəstəliyi zamanı nədənsə tez-tez atasını və Üzeyir Hacıbəyovu xatırlayırdı".

Düşünürəm ki, bu xatırlama Böyük şairin atasına və atası qədər sevdiyi və hörmət bəslədiyi Üzeyir bəyə sonsuz məhəbbətin təzahürü idi.

Üzeyir bəyin həyatını dəyişdiyi günlərdə Səməd Vurğun dillər əzbəri olan, bir aforizmə çevrilən, hər kəsin əzbərdən bildiyi məşhur " Ölüm sevinməsin qoy" şeirini yaratdı. Bu əsər Şairin Böyük bəstəkara əbədi bir abidəsi idi. Bu mötəşəm əsər sanki bu gün yazılıb və bu gün də hər iki dahi bizimlə bərabər addımlayır, bizim içimizdədi, yaratdıqları bənzərsiz əsərlərində, hər kəsin qəlbində yaşayır.

***...Budur, baxır üzümə, baxır sənətkar gözü,***
***Yenə gülür danışır, nəfəs alır Üzeyir,***
***Süzülür qəlb evimə onun hər odlu sözü,***
***Rübabının səsində qanad açır min şe'r.***
***O sabah da bizimlə addımlayır yanaşı,***
***"Koroğlu"dan oxuyur yenə zəfər ordumuz.***
***Ey Füzuli şe'rinin bir bəstəkar qardaşı!***
***Şöhrət tapdı adınla bizim ana yurdumuz.***
***Ölüm sevinməsin qoy, ömrünü vermir bada***
***El qədrini canından daha əziz bilənlər.***
***Şirin bir xatirətək qalacaqdır dünyada***
***Sevərək yaşayanlar, sevilərək ölənlər...***
***Mən bu kiçik şe'rimi yazıram göz yaşımla,***
***Çünki vidalaşıram bir ürək sirdaşımla***